AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT STATİSTİKA KOMİTƏSİ
Milli hesablar və makroiqtisadi göstəricilər
statistikası şöbəsi

# ÜMUMİ DAXİLİ MƏHSUL GÖSTƏRİCİSİNİN HESABLANMASINA DAİR KEYFİYYƏT MƏRUZƏSİ

**17.04.2013**

Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə: nuru@azstat.org, + 994 12 538 74 50

# Mündəricat


1. Statistik prosesə və məhsullara giriş........................................................ 3
2. Aktuallıq............................................................................................ 5
3. Dəqiqlik.............................................................................................. 6
4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə................................ 10
5. Bərabər giriş və aydınlıq........................................................................ 11
6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik.............................................. 12
7. Çıxış keyfiyyət komponentləri arasında seçim.......................................... 13
8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi.................... 13
9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük........................................ 14
10. Məxfilik, şəffaflıq və təhlükəsizlik.......................................................... 14
11. Yekun................................................................................................ 14

## 1. <u>Statistik prosesə və məhsullara giriş</u>

### *ÜDM-in qısa təsviri*

**Milli hesablar sistemi (MHS)** bazar iqtisadiyyatı şəraitində makroiqtisadi prosesləri özündə əks etdirən bir-biri ilə qarşılıqlı əlaqəli olan və 150-dən çox ölkədə tətbiq edilən ikitərəfli göstəricilər sistemidir. O, anlayışlar, təriflər, təsnifatlar və mühasibat uçotu qaydaları əsasında işlənərək hesablar, balanslar və s. cədvəllər şəklində qurulmuş balans növüdür. Bu kompleks sistem qərarların qəbul edilməsi üçün sosial-iqtisadi təhlilin aparılmasını və sosial-iqtisadi siyasətin formalaşdırılmasını təmin edən formada məlumatların tərtib və təqdim edilməsinə imkan verir.

Müasir statistika sistemində makroiqtisadi göstəricilər iki hissəyə: iqtisadi və sosial göstəricilərə bölünür. İqtisadi göstəricilərə daxil olan Ümumi Daxili Məhsul (ÜDM) MHS-nin və iqtisadiyyatın ən mühüm makroiqtisadi göstəricilərdən biridir. ÜDM iqtisadi vahidlərin-rezidentlərin istehsal fəaliyyətinin son nəticəsini əks etdirir və həmin vahidlər tərəfindən son istehlak üçün istehsal olunmuş əmtəə və xidmətlərin dəyəri ilə ölçülür.

**Ümumi Daxili Məhsul (ÜDM) 3 üsulla hesablana bilər:**

**1. istehsal üsulu ilə** (iqtisadiyyatın bütün sahələrində yaradılmış ümumi əlavə dəyərinin cəmi kimi);

**2. gəlirlər üsulu ilə** (əmtəə və xidmətlərin istehsalçısı olan rezident vahidlərinin arasında bölüşdürülən ilkin gəlirlərin, yəni muzdlu işçilərin əmək haqlarının, istehsala və idxala xalis vergilərin, ümumi mənfəətin və ümumi qarışıq gəlirlərin cəmi kimi);

**3. xərclər üsulu ilə** (əmtəə və xidmətlərin son istehlakının, əsas kapitalın ümumi yığımının, maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsinin, qiymətlilərin (sərvətlərin) əldə edilməsinin, əmtəə və xidmətlərin ixrac və idxal saldosunun cəmi kimi).

Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsi ÜDM-in ölkə üzrə aylıq (artan yekunla), rüblük və illik dövrlüklə hesablayır.

ÜDM göstəricisinin qiymətləndirilməsi cari, müqayisəli və baza dövrünün daimi qiymətləri ilə aparıla bilər.

ÜDM və onun komponentlərinin müqayisəli qiymətlərlə hesablanması, iqtisadiyyatın

inkişafının öyrənilməsi və struktur dəyişiklik təhlili üçün zəruridir. Bu qiymətləndirmələrin dəqiqliyi və onların əsasında çıxarıla bilən nəticələr yüksək dərəcədə statistik hesablamaların vasitələrindən və üsullarından asılıdır.

ÜDM-in daimi qiymətlərlə hesablanması həm istehsal, həm də xərclər (son istehlak komponentlərinin cəmi kimi) baxımından həyata keçirilə bilər. Qiymətlədirmə, ÜDM-in ayrı-ayrı komponentlərinin daimi qiymətlərlə qiymətləndirilməsi və onların toplanması yolu ilə aparılır. Daimi qiymətlərə çevrilmə üsulunun seçilməsi olan qiymətləndirilən göstəricinin xüsusiyyətlərindən və mövcud olan məlumatlardan asılıdır.

ÜDM-in daimi qiymətlərlə qiymətləndirilməsi onun müqayisəli dinamikası haqqında məlumatın əldə edilməsinə imkan verir.

### *Müşahidə vahidləri*

Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsi ÜDM-in hesablanması üçün sahə statistika şöbələrinin və inzibati məlumat mənbələrinin göstəricilərindən istifadə edir. Dövlət Statistika Komitəsinin sahə şöbələrindən mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq ölkədə fəaliyyət göstərən müəssisə və təşkilatlar tərəfindən müvafiq dövr ərzində istehsal olunan məhsul və xidmətlərin dəyəri və istehsala çəkdikləri xərclər, fiziki həcm və qiymət indeksləri, əhalinin sayı, ev təsərrüfatlarının xərcləri, pərakəndə əmtəə dövriyyəsi barədə məlumatlar əldə edilir. Bundan əlavə inzibati mənbələrdən məhsula və idxala vergilər, subsidiyalar, valyuta məzənnəsi, dövlət büdcəsinin xərcləri, mal və xidmətlərin idxalı və ixracı haqqında məlumatlardan və s. göstəricilərdən də istifadə edilir.
Əldə edilən yekun məlumatlar şöbənin mütəxəssisləri tərəfindən analiz edilir və uyğunsuzluq aşkar edilərsə araşdırılması və ya düzəlişlərin edilməsi üçün müvafiq müşahidə vahidlərinə göndərilir.

### *Əhatə*

ÜDM-in hesablanması üçün təşkilatı-hüquqi formasından və mülkiyyətindən asılı olmayaraq ölkədə sahibkarlıq fəaliyyəti göstərən bütün müəssisə və təşkilatların yekun məlumatlarından istifadə olunur. İqtisadi fəaliyyət növləri təsnifatının üçüncü versiyasında əks olunan bütün fəaliyyət növləri üzrə məlumatlar sahə statistikası şöbələri tərəfindən emal edilərək Milli hesablar və makroiqtisadi göstəricilər

statistikası şöbəsinə təqdim olunur.
ÜDM-in dolğunluğunu təmin etmək məqsədi ilə Dövlət Statistika Komitəsində müşahidə olunmayan iqtisadiyyat üzrə sahə və şöbələr tərəfindən aparılan müayinələrin nəticələri və rəsmi statistika müşahidələrindən kənarda qalan iqtisadi fəaliyyət növləri üzrə aparılan əlavə hesablamaların nəticələri ÜDM-in hesablanmasında öz əksini də tapır.

**ÜDM-in tərifində olan əsas prinsiplər:**

- İkiqat (təkrar) hesablanmanın yolverilməzliyi;
- Gəlirlərin təkrar bölüşdürülməsinin nəticəsi olmayan, yalnız məcmu buraxılışın həcmini dəyişən göstəricilərin qeydə alınması;
- Yalnız həmin ildə istehsal edilmiş məhsulun dəyərinin əks etdirilməsi.

## 2. Aktuallıq

Hazırda, dünyanın əksər ölkələrində olduğu kimi Azərbaycanda da əsasən Milli hesablar sisteminin BMT-nin Statistik Komissiyası, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı və Avropa Birliyinin Statistika Bürosu tərəfindən 1993-cü ildə qəbul olunmuş variantı istifadə edilir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2012-ci il 29 fevral 5/1 nömrəli kollegiya qərarı ilə təsdiq edilmiş "2012-2014-cü illərdə MHS-2008-in tətbiqi və Milli hesablar statistikası üzrə göstəricilərin təkmilləşdirilməsinə dair fəaliyyət planı"-nda iqtisadiyyatın sektorları üzrə rüblük və illik hesablar göstəricilərinin, onların işlənməsi sisteminin, aktiv və passivlər balansı məlumatlarının, ehtiyat və istifadə cədvəllərinin, ümumi daxili məhsul göstəricisi və müşahidə olunmayan iqtisadiyyat üzrə aparılan hesablamaların təkmilləşdirilməsi, İqtisadi fəaliyyət növləri təsnifatının yeni versiyasının milli hesablar statistikası göstəricilərinə tətbiqi və milli hesablar statistikası üzrə göstəricilərin əhatəliliyini və məlumatların keyfiyyətini təmin edən digər məsələlərin həll edilməsi nəzərdə tutulur.

ÜDM-in hesablanması və qarşıya qoyulan vəzifələrin keyfiyyətli həlli üçün, Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsi ilk növbədə məlumatların keyfiyyətinin yaxşılaşdırılması istiqamətində metodoloji işləri davam etdirir. Şöbənin əməkdaşları mütəmadi olaraq seminarlarda iştirak edir və hər hansı metodoloji yeniliklər baş verərsə onlar operativ olaraq bu yenilikləri mümkün qədər praktikada

həyata keçirdir. Metodoloji materialın hazırlanmasında aşağıdakı sənədlərdən istifadə edilir:

- 1993-cü ilin Milli Hesablar Sistemi (1993 SNA) və 2008-ci ilin MHS (2008 SNA);
- Avropanın İnteqrasiya edilmiş İqtisadi Hesablar Sistemi (ESA-95);
- İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT), MDB Dövlətlərarası Statistika Komitəsinin və digər beynəlxalq təşkilatların təsnifatının tətbiqi sahəsində beynəlxalq təcrübəni əks etdirən materialları.

## 3. Dəqiqlik

***Məlumatların yenidənbaxılması və yayılması.***

ÜDM-in aylıq və rüblük qiymətləri cari ilin gözlənilən nəticələrinin ilkin müəyyənləşdirilməsi və cari iqtisadi dinamikanın xarakterizə edilməsi üçün işlənir. Bu qiymətlər, ilk daxili göstəricilər olaraq, illik qiymətlərin qurulması zamanı dəqiqləşdirilir.

Rüblük ÜDM hesablanması və dərc olunması üzrə işlər dərc olunmuş göstəricinin il ərzində bir neçə dəfə dəqiqləşdirilməsini tələb edə bilər.

Məlumatların dəqiqləşdirilməsi rüblük ÜDM-in hesablanması üzrə mövcud beynəlxalq praktikanın ayrılmaz hissəsi olmaqla istifadəçilərə ən aktual və dəqiq məlumatların təqdim edilməsini təmin edən mexanizmdir. Məhdud resurslar şəraitində istifadəçilərin tələbatını təmin etmək zərurəti məlumatların vaxtında dərc edilməsi ilə onların dürüstlüyü və dolğunluğu arasında ziddiyyətin yaranmasına gətirib çıxarır. Bu ziddiyyətin qismən aradan qaldırılması üçün beynəlxalq təcrübədə ilkin statistik göstəricilərin hazırlanması, əlavə və daha keyfiyyətli məlumatlar daxil olduqda isə onların dəqiqləşdirilməsi praktikası tətbiq edilir.

Məlumatların dəqiqləşdirilməsi ilə bağlı problemlərin aradan qaldırılması və lazımsız tənqidlərlə üzləşməmək üçün statistik məlumatların dəqiqləşdirilməsi və yenidənbaxılması sahəsində düşünülmüş və şəffaf siyasət həyata keçirilir. Həmin siyasətin ən vacib tərkib hissəsi statistik məlumatların hazırlanması, dəqiqləşdirilməsi və dərc olunması qrafikinin işlənilməsidir.

***Məlumatların uyğunlaşdırılması və düzəlişlər.***

Rüblük məlumatlar göstəricinin qısamüddətli dinamikanı, illik məlumatlar isə həmin göstəricinin ümumi səviyyəsini və uzunmüddətli dinamikasını müəyyən edir. Buna görə də, rüblük və illik məlumatlar həm həcm, həm də artım baxımından bir-biri ilə uyğunlaşdırılır. Göstəricilərin uzun müddətli dinamika sıralarının düzgün təsviri məqsədilə ayrı-ayrı baza illərinin qiymətləri və strukturunda hesablanmış dinamika sıralarının zəncirvari indekslər vasitəsilə bir-birinə uyğunlaşdırılmaqla birləşdirilir. Müvafiq zəncirvari indekslərin hesablanması üçün "illik uzlaşdırma" üsulundan istifadə edilir.

***Mövsümi düzəlişlər.***

Rüblük məlumatlar üzrə ÜDM-in səviyyəsi *mövsümü düzəlişi* nəzərə almaqla təqdim olunur. Rüblük məlumatlar əsasında göstəricinin dinamikasının düzgün təsviri və rüblərin bir-biri ilə müqayisəsi zamanı mövsümi amillərin kənarlaşdırılması üçün mövsümi düzəlişlərin tətbiq edilməsi olduqca vacibdir. Mövsümi düzəlişlər nəzərə alınmış dinamika sıralarının qurulması üçün Avropa ölkələrinin əksəriyyətində (həmçinin Azərbaycan Respublikası Dövlət Statistika Komitəsində) istifadə olunan "Demetra+" proqram təminatından istifadə edilir. "Demetra+" proqram təminatı, istifadəçilərə asan başa düşülən müxtəlif əyani qrafiklər vasitəsilə hazırlanan məlumatların diaqnostikası imkanı yaradır. Diaqnostikanın əsas məqsədi iqtisadi inkişaf göstəricilərin təhrif edilməsi üçün düzgün olmayan məlumatların qabağının alınması, mövsümi düzəlişlərin, hazırlanan statistik məlumatların keyfiyyətinin təmin edilməsidir.

## ***Rüblük ÜDM-in dəqiqləşməsi***

### ***Birinci rüb***

#### ***1.1. Birinci rüb üzrə ÜDM-in 1-ci dəqiqləşməsi***

Dəqiqləşdirmə sahə statistika şöbələrinin birinci rübün məlumatlarına düzəlişləri, ikinci rüb üzrə əldə edilmiş statistik məlumatlar, dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

***1.2. Birinci rüb üzrə ÜDM-in 2-ci dəqiqləşməsi***

Dəqiqləşdirmə sahə statistika söbələrinin üçüncü rüb üzrə məlumatları və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

***1.3. Birinci rüb üzrə ÜDM-in 3-cü dəqiqləşməsi***

Dəqiqləşdirmə sahə statistika söbələrinin dördüncü rüb üzrə məlumatları illik ÜDM-in ilkin qiymətləndirmələri və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

***1.4. Birinci rüb üzrə ÜDM-in 4-cü dəqiqləşməsi***

Dəqiqləşdirmə sahə statistika söbələrinin növbəti ilin birinci rübü üzrə məlumatları və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

***1.5. Birinci rüb üzrə ÜDM-in son dəqiqləşməsi***

Dəqiqləşdirmə illik ÜDM-in yekun göstəricisi nəzərə alınmaqla həyata keçirilir.

## ***İkinci rüb***

***2.1. İkinci rüb üzrə ÜDM-in 1-ci dəqiqləşməsi***

Dəqiqləşdirmə sahə statistika şöbələrinin ikinci rübün məlumatlarına düzəlişləri, üçüncü rüb üzrə əldə edilmiş statistik məlumatlar və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

***2.2. İkinci rüb üzrə ÜDM-in 2-ci dəqiqləşməsi***

Dəqiqləşdirmə sahə statistika şöbələrinin dördüncü rüb üzrə məlumatları, illik ÜDM-in ilkin qiymətləndirmələri və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

***2.3. İkinci rüb üzrə ÜDM-in 3-cü dəqiqləşməsi***

Dəqiqləşdirmə sahə statistika şöbələrinin növbəti ilin birinci rübü üzrə məlumatları və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

***2.4. İkinci rüb üzrə ÜDM-in son dəqiqləşməsi***

Dəqiqləşdirmə illik ÜDM-in yekun göstəricisi nəzərə alınmaqla həyata keçirilir.

## ***Üçüncü rüb***

***3.1. Üçüncü rüb üzrə ÜDM-in 1-ci dəqiqləşməsi***

Dəqiqləşdirmə sahə statistika şöbələrinin üçüncü rübün məlumatlarına düzəlişləri, dördüncü rüb üzrə əldə edilmiş statistik məlumatlar, illik ÜDM-in ilkin qiymətləndirmələri və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

***3.2. Üçüncü rüb üzrə ÜDM-in 2-ci dəqiqləşməsi***

Dəqiqləşdirmə sahə statistika şöbələrinin növbəti ilin birinci rübü üzrə məlumatları və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

***3.3. Üçüncü rüb üzrə ÜDM-in son dəqiqləşməsi***

Dəqiqləşdirmə illik ÜDM-in yekun göstəricisi nəzərə alınmaqla həyata keçirilir.

## ***Dördünçü rüb***

***4.1. Dördüncü rüb üzrə ÜDM-in 1-ci dəqiqləşməsi***

Dəqiqləşdirmə sahə statistika şöbələrinin dördüncü rübün məlumatlarına düzəlişləri, növbəti ilin birinci rübü üzrə məlumatları və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

***4.2. Dördüncü rüb üzrə ÜDM-in son dəqiqləşməsi***

Dəqiqləşdirmə illik ÜDM-in yekun göstəricisi nəzərə alınmaqla həyata keçirilir.

# ***İllik ÜDM-in dəqiqləşməsi***

***1. İllik ÜDM-in 1-ci dəqiqləşməsi***

Dəqiqləşdirmə hesabat ilinin dörd rübü üzrə hesablanmış ÜDM-in məlumatları nəzərə alınmaqla həyata keçirilir.

***2. İllik ÜDM-in son dəqiqləşməsi***

Dəqiqləşdirmə Dovlətstatkomun Aparatının sahə şöbələrinin, Qiymət, Əmək, Əhalinin həyat səviyyəsi və ev təsərrüfatlarının tədqiqatı statistikası şöbələrinin yekun illik məlumatları, Maliyyə Nazirliyi, Mərkəzi Bank, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Neft Fondu və digər dövlət orqanlarının yekun məlumatları nəzərə

alınmaqla həyata keçirilir.

| Sahələr | Dəqiqləşmə tarixləri | | | | |
|---|---|---|---|---|---|
| | birinci dəqiqləşmə tarixi | ikinci dəqiqləşmə tarixi | üçüncü dəqiqləşmə tarixi | dördüncü dəqiqləşmə tarixi | Son dəqiqləşmə tarixi |
| **Milli hesablar və makroiqtisadi göstəricilər statistikası** | | | | | |
| **Ümumi daxili məhsul** | | | | | |
| **rüblük (birinci rüb üzrə ÜDM)** | cari il sentyabr ayının 30-dək | cari il dekabr ayının 30-dək | növbəti il mart ayının 30-dək | növbəti il iyun ayının 30-dək | növbəti il sentyabr ayının 30-dək |
| **rüblük (ikinci rüb üzrə ÜDM)** | cari il dekabr ayının 30-dək | növbəti il mart ayının 30-dək | növbəti il iyun ayının 30-dək | | növbəti il sentyabr ayının 30-dək |
| **rüblük (üçüncü rüb üzrə ÜDM)** | növbəti il mart ayının 30-dək | növbəti il iyun ayının 30-dək | | | növbəti il sentyabr ayının 30-dək |
| **rüblük (dördüncü rüb üzrə ÜDM)** | növbəti il iyun ayının 30-dək | | | | növbəti il sentyabr ayının 30-dək |
| **illik** | növbəti il mart ayının 30-dək | | | | növbəti il sentyabr ayının 30-dək |

## 4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə

ÜDM istehsalına dair aylıq məlumatlar cari və müqayisəli qiymətlərlə hesabat dövründən sonra 15 gün ərzində artan yekunla Dövlət Statistika Komitəsinin müvafiq şöbələrinin və Maliyyə Nazirliyinin məlumatları əsasında hesablanır.

Rüblük ÜDM-in istehsalı və istifadəsinə dair məlumatlar cari və müqayisəli qiymətlərlə hesabat dövründən sonra 90 gün ərzində Dövlət Statistika Komitəsinin müvafiq şöbələrinin, Maliyyə Nazirliyinin, Mərkəzi Bankın, Dövlət Sosial Müdafiə Fondunun, Dövlət Neft Fondunun və s. məlumatları əsasında xalis rüblər üzrə hesablanır.

İllik ÜDM-in son dəqiqləşdirməsi Dövlətstatkomun Aparatının sahə şöbələrinin,

Qiymət, Əmək, Əhalinin həyat səviyyəsi və ev təsərrüfatlarının tədqiqatı statistikası şöbələrinin yekun illik məlumatları, Maliyyə Nazirliyi, Mərkəzi Bank, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Neft Fondu və digər dövlət orqanlarının yekun məlumatları nəzərə alınmaqla həyata keçirilir.

Milli hesablar sisteminin ardıcıl iqtisadi hesabları və onların göstəriciləri illik dövriliklə növbəti ilin noyabr ayının sonunadək Dövlətstatkomun Aparatının sahə şöbələrinin, Qiymət, Əmək, Əhalinin həyat səviyyəsi və ev təsərrüfatlarının tədqiqatı statistikası şöbələrinin yekun illik məlumatları, Maliyyə Nazirliyi, Mərkəzi Bank, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Neft Fondu və digər dövlət orqanlarının yekun məlumatları nəzərə alınmaqla hazırlanır.

*2013-cü ili əhatə edən bir neçə ay üzrə **V2 (hesabat dövrünün sonuncu günündən son nəticələrin nəşr gününə qədər günlərin sayı)** göstəricisi (son nəticələrin vaxtlı-vaxtında olması)*

| Hesabat dövrü | 31.03.2013 | 30.04.2013 | 31.05.2013 |
|---|---|---|---|
| Nəşr tarixi | 15.04.2013 | 15.05.2013 | 14.06.2013 |
| Aralıq vaxt (laq), təqvim günü | 15 gün | 15 gün | 14 gün |
| Aralıq vaxt (laq), iş günü | 11 gün | 11 gün | 10 gün |

## 5. Bərabər giriş və aydınlıq

ÜDM üzrə yekun məlumatlar hazırlandıqdan sonra istifadəçilərin tələbatlarının ödənilməsi məqsədi ilə bir neçə yayım vasitəsindən istifadə olunur. Belə ki, yekun məlumatların hesablanması prosesi yekunlaşdıqdan sonra aylıq və illik məlumatlar əks olunmuş press-reliz, BVF-nin xüsusi standartları üzrə hazırlanmış cədvəllər, illik məlumatlar əks olunmuş statistik məcmuə Komitənin veb-səhifəsində əks olunur. İllik məlumatlar Komitənin veb-səhifəsindəki statistik məlumat bazası bölməsində də yerləşdirilir: http://www.azstat.org/MESearch/search?departament=1&lang=az.

Bundan əlavə göstəricilər və hesabat formalarına dair metaməlumatlar, həmçinin digər metodoloji izahlar da mövcuddur: (http://www.stat.gov.az/menu/7/).

*Nəticələrin yayımlanması üçün istifadə olunan vasitələr*

| Sıra №-si | Vasitə | Əldə edilmə yeri |
|---|---|---|
| 1 | Dövlət Statistika Komitəsinin veb-saytı | www.stat.gov.az |
| 2 | Ekspress məlumatlar, press-relizlər | www.stat.gov.az |
| 3 | Nəşr olunan statistik məcmuələr | http://www.stat.gov.az/source/system_nat_accounts/ |
| 4 | Məlumat bazası | http://www.azstat.org/MESearch/search?departament=1&lang=az |
| 5 | Dövlət statistika orqanlarına göndərilən sorğulara cavablar | - |
| 6 | "Azərbaycan rəqəmlərdə" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |
| 7 | "Azərbaycanın Milli Hesabları" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |
| 8 | "Azərbaycanın statistik göstəriciləri" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |
| 9 | "Azərbaycan faktlarla" | - |

***BA1. Kağız məruzələr üçün abunələrin və sifarişlərin sayı***

ÜDM-ə dair məlumatlar kağız formasında Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsi tərəfindən hazırlanan "Azərbaycanın Milli Hesabları" adlı illik məcmuə vasitəsilə təqdim olunur. Məcmuə ümumi olaraq 150 nüsxə çap olunur ki, onlardan:

-110 nüsxəsi müxtəlif nazirliklərə və digər dövlət orqanlarına, həmçinin yerli və xarici təşkilatlara;

-18 nüsxə şöbənin işçilərinə;

-22 nüsxə Dövlət Statistika Komitəsində digər şöbələrə paylanılır.

***BA2. Onlayn məlumat bazasına girişlərin sayı***

http://www.stat.gov.az/link_click_counter/-də milli hesablar statistikası məhsulundan istifadəçilərin istifadə %-ləri daimi əks etdirilir.

## 6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik

ÜDM-ə dair müəyyən materialların hazırlanmasında və cədvəllərin hesablanmasında əksər Avropa ölkələrində tətbiq olunan və ölkə iqtisadiyyatına uyğun olan

təcrübələrdən istifadə edilir. Son onillikdə iqtisadi statistikada beynəlxalq standartlar sürətlə inkişaf etdiyindən, Avropa İttifaqının (Aİ) maliyyələşdirdiyi və Aİ-nin dörd üzv ölkəsindən olan ekspertlərin iştirakı ilə 15 noyabr 2009-12 noyabr 2011- ci illərdə "Milli hesablar, müşahidə olunmayan iqtisadiyyat, biznes statistikası və istehsalçı qiymət indekslərinin Avropa standartlarına uyğunlaşdırılması sahəsində Azərbaycan Respublikasının Dövlət Statistikası Komitəsinə dəstək" Tvinninq layihəsi həyata kecirilmişdir. Layihə çərçivəsində həyata keçirilən təlim səfərləri zamanı Çexiya, Litva, Almaniya, Bolqarıstan Statistika İdarələrinin mütəxəssislərinin bütün cədvəllərinin qurulmasında əldə etdikləri nailiyyətlər öyrənilmiş və bu praktikanın Azərbaycanda tətbiq edilməsi qərara alınmışdır.

***UM1. Verilmiş dinamika sırasının uzunluğu***

ÜDM-in illik nəticələri 1990-cı ildən hazırkı dövrədək dinamika sıralarında əks etdirilir və Komitənin veb-səhifəsindəki Milli hesablar sistemi və tədiyyə balansı bölməsində yerləşdirilir: http://www.stat.gov.az/source/system_nat_accounts/.

## 7. Çıxış keyfiyyət komponentləri arasında seçim

Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsi ÜDM-in hesablanması zamanı bütün keyfiyyət aspektlərinin ayrı-ayrılıqda yaxşılaşdırılması üçün mümkün imkanlardan istifadə edir və bu sahədə müsbət nəticələrin alınması istiqamətində işlərini davam etdirir.

Aktuallıq aspekti üzrə məlumatların yığımı, emalı və yayılması zamanı operativlik hər zaman gözlənilir. Dəqiqlik aspekti üzrə məlumatların toplanmasına daim nəzarət edilir və mütəmadi olaraq məlumatların dürüstlüyü yoxlanılır.

Vaxtlı-vaxtında olma aspekti üzrə ÜDM-in hesablanması ilə bağlı bütün işlər Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin iş planına uyğun olaraq həyata keçirilir.

## 8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi

Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsi tərəfindən istifadəçilərlə hər il mütəmadi olaraq görüş keçirilir. Bu görüşdə əsas istifadəçilərdən olan İqtisadi İnkişaf Nazirliyi, Mərkəzi Bank, İqtisad Universiteti, Maliyyə Nazirliyi,

Azərbaycan Milli Elmlər Akademiyasının mütəxəssisləri ilə fikir mübadiləsi aparılır və istifadəçilərin tələbatlarının ödənilməsi məqsədi ilə onlar tərəfindən verilən təkliflər mümkün qədər nəzərə alınır və tələbatın ödənilməsi istiqamətində növbəti illərdə şöbə öz işini qurur. Sonuncu dəfə Dövlət Statistika Komitəsinin 28 dekabr 2011-ci il tarixli, 38/7 nömrəli kollegiya qərarı ilə təsdiq edilmiş "2012-ci il metodoloji və məlumat istifadəçiləri ilə iş planı" na əsasən şöbə tərəfindən 5 oktyabr 2012-ci il tarixində istifadəçilər üçün seminar keçirilmişdir.

2010-cu ildə istifadəçilər arasında DSK-nın Məlumatların yayılması şöbəsi tərəfindən sorğu keçirilib və respondentlərin 70,5 faizi tam, 27,7 faizi isə qismən ÜDM-in artım tempinə inandıqlarını bildirmişlər.

## 9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük

Rəsmi statistikanın keyfiyyətliliyini və ictimaiyyətin statistikaya inamını təmin etmək üçün bu sahədə proqramların həyata keçirilməsi üzrə işlərin təşkili və aparılması statistika məlumatlarının düzgünlük, obyektivlik, müasir şəraitə uyğunluq, məxfilik və şəffaflıq prinsipinə əsaslanır.

## 10. Məxfilik, şəffaflıq və təhlükəsizlik

Rəsmi statistika haqqında Azərbaycan Respublikasının Qanununun VI fəslinin 16-cı maddəsinə əsasən statistikanın aparılması üçün yığılan, işlənən və məlumatlar bazasına daxil edilən, birbaşa və ya dolayı yolla statistik vahidlərin tanınmasına və beləliklə də, ilkin məlumatların əldə edilməsinə imkan verən hüquqi və fiziki şəxslərin ilkin statistik məlumatları konfidensial sayılır və statistik sirdir. Bu baxımdan da Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsi ilkin məlumatların məxfiliyinin qorunmasını daim izləyir və bu sahədə lazımi tədbirlər görür.

## 11. Yekun

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2012-ci ildə fəaliyyətinin əsas istiqamətlərindən birini makroiqtisadi statistika təşkil etmişdir. Milli hesablar statistikası üzrə işlər, onların keyfiyyətinin yüksəldilməsinə, sahə statistikasının məlumatları ilə uyğunluğunun və İƏİT-in və BVF-nin tələblərinə, metodoloji

müvafiqliyinin təmin olunmasına yönəldilmişdir. Milli hesablar sisteminin göstəricilərinin hesablanmasının etibarlılığına xüsusi diqqət yetirilmişdir. Azərbaycanda Milli hesablar statistikası üzrə göstəricilərin təkmilləşdirilməsi, yeni MHS-2008-in ölkənin statistika praktikasının tətbiqinə dair işlərin səmərəli və dəqiq planlaşdırılaraq yerinə yetirilməsi beynəlxalq statistika təşkilatları tərəfindən yüksək qiymətləndirilir.

"2012-2014-cü illərdə Milli hesablar statistikası üzrə göstəricilərin təkmilləşdirilməsinə dair fəaliyyət plan"nın vaxtında və mükəmməl yerinə yetirilməsi məqsədi ilə gələcəkdə keyfiyyətin yüksəldilməsi istiqamətində işlərin davam etdirilməsi məqsədəuyğun hesab edilir.

Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə: nuru@azstat.org, + 994 12 538 74 50